# “MCDONALD’S 25!” tirajlı stimullaşdırıcı lotereyanın şərtləri

1. Lotereya təşkilatçısı haqqında məlumat: “MCDONALD'S AZƏRBAYCAN" QSC (VÖEN: 1700323971) (bundan sonra “McDonald’s”).
2. Lotereyanın adı və forması: “McDonald’s 25!” tirajlı stimullaşdırıcı lotereya (bundan sonra - Lotereya).
3. Lotereyanın keçirilməsi müddəti: 06 sentyabr 2024-cü il tarixindən 1 noyabr 2024-cü il tarixinədəkdir.
4. Lotereyanın məqsədi: McDonald’s Azərbaycan şirkətinin 25 il dönümü münasibətilə “McDonald’s”-ın müəyyən məhsullarının satışını stimullaşdırmaq məqsədilə istehlakçılarına avtomobil, səyahətlər və bu Lotereya şərtlərində göstərilən digər hədiyyələri uduş vasitəsilə əldə etmək şansını verməkdir.
5. Lotereyanın keçirildiyi ərazi: Azərbaycan Respublikasının bütün ərazisi. Lotereya 2 mərhələdən və 3 tirajdan ibarətdir: 1-ci mərhələdə - 2 tiraj, 2-ci mərhələdə - 1 tiraj nəzərdə tutulur.
6. Lotereya elektron formatında təşkil olunur, biletlər elektron kod (şifrə) formasında növbəti qaydada təqdim edilir: Lotereyada iştirak hüququ “McDonald’s” restoranlarının daxilində, “MakAvto”-da və ya onlayn (çatdırılma üçün) “Böyük MakMenyu”, yəni Big Mac böyük menyu, Dabl Big Mac böyük menyu, McChicken böyük menyu, Dabl McChicken böyük menyu, Filet-O-Fish böyük menyu, Dabl Filet-O-Fish böyük menyu, Royal Çizburger böyük menyu, Dabl Royal Çizburger böyük menyu, Dabl Çizburger böyük menyu, Tripl Çizburger böyük menyu, Dabl Hamburger böyük menyu, Tripl Hamburger böyük menyu, Big Tasty böyük menyu (ət), Big Tasty böyük menyu (toyuq), McCrispy böyük menyu, McCrispy Bal-Xardal böyük menyu, Sezar Roll böyük menyu, Şaurma Roll böyük menyu, Dabl Çikenburger böyük menyu, Dabl Mini Tasty böyük menyu, Bif Freş böyük menyu, Çiken Freş böyük menyu, Fiş Freş böyük menyu, (bundan sonra “Menyu”) (Menyuya daxildir: 1 burger və ya roll, 1 böyük Fri kartofu və 1 böyük Coca-Cola içkisi) sifarişi zamanı kassa çekində çap olunacaq 12 simvoldan ibarət şifrənin *www.mcdonalds25.az* veb saytında və ya “McDonald’s” mobil tətbiqindəki müvafiq qeydiyyat bölməsində xüsusi anketi doldurarkən daxil edilməsi ilə həyata keçirilir. Menu nağd və/və ya ödəniş kartlarla ödənilə bilər. Hər bir Menyu VİSA ödəniş karları ilə ödənildikdə, hər Menyuya görə kassa çekinin üzərində 1(bir) yox, 2(iki) şifrə göstərilir və hər iki şifrə qeydiyyatdan keçirilə bilər. Uduş fondunun oynanılması zamanı hansı şifrə çıxarsa, həmin şifrənin əks olunduğu çekin sahibi olan iştirakçı bu Lotereyada qalib olmuş hesab ediləcəkdir. Hər şifrəli kassa çeki Lotereyanın uduş fondunun oynanılmasının hər iki mərhələsində 1 (bir) iştirak hüququ təqdim edir. Avtomobilin oynanılacağı sonuncu tiraj istisna olmaqla, uduşlu şifrə növbəti tirajlarda iştirak etmir. Şifrə ilə birlikdə qeyd olunub göndərilən iştirakçının adı, soyadı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, doğum ili, şəxsiyyət vəsiqəsində qeyd edilən yaşayış yeri, elektron poçt ünvanı (e-mail) və mobil telefon nömrəsi

əlavə məlumat üçündür. İştirakçı olmaq üçün istifadə olunan telefon nömrəsi Lotereyada vasitə əhəmiyyəti daşıyır. Lotereya Azərbaycan Respublikası ərazisində keçirilir. Lotereya bileti qismində iştirakçı tərəfindən kassa çekinin üzərindəki *www.mcdonalds25.az* veb saytında və ya "McDonald's" mobil tətbiqindəki müvafiq qeydiyyat bölməsində xüsusi anketi doldurarkən daxil olunan və sistem tərəfindən uğurlu olması bildirişlə təsdiqlənən şifrə olacaqdır. Çekin üzərində çap olunan şifrələr xüsusi kompüter proqramı vasitəsilə təsadüfi seçilmiş toplamda rəqəm və hərflərin kombinasiyasından ibarət 12 simvoldan formalaşdırılır. Misal: 8KF22VEM4LOP. Müvafiq qeydiyyat sistemində iştirakçıya aid tələb edilən digər məlumatlarla birgə doğru formada daxil edilən (göndərilən) şifrə, sistem tərəfindən qəbul edildikdə, şifrəni daxil edən (göndərən) şəxsə sistem tərəfindən avtomatik qaydada şifrənin uğurla qeydə alınması barədə bildiriş göndərilir. Uduş fondunun oynanılması sistem tərəfindən qeydə alınmış şifrələr üzrə həyata keçiriləcəkdir.

7. Lotereyada müddətində Menyu alan hər kəs lotereyada iştirak etməklə yanaşı McDonald's-dan pulsuz sərinləşdirici içki üçün promokod hədiyyə alacaq. Promokod lotereya kodu ilə yanaşı çekdə çap olunacaqdır.
8. Lotereyanın Uduş Fondu: Lotereya müddətində 2 mərhələdə 3 (üç) tirajla keçiriləcək və hər tirajda müxtəlif uduşlar* (uduş fondunda qeyd edilən) oynanılacaq. Toplamda isə 1 (bir) ədəd avtomobil Haval H6 Hybrid, 2 (iki) ədəd iki nəfərlik səyahət**, 5 (beş) ədəd iPhone 15 - 128 GB telefonu, 5 (beş) ədəd Televizor Hisense 50A6K, 25 ədəd McDonald's-da ömür boyu pulsuz yemək əldə etmək imkan verən kuponlar***, 150 ədəd 50 AZN dəyərində olan "Go Sport" şirkətindən hədiyyə kartları****, 500 ədəd "Sky Park" şirkətindən təqdim olunan "Sky Park" əyləncə mərkəzinə "ailə" giriş biletləri*****, 1000 ədəd "Park Cinema" kinoteatrlarına bilet******. Menyu alışı zamanı kassa çekin üzərində əks olunan şifrəni tələblərə uyğun formada qeydiyyatdan keçirən və Lotereya iştirakçısı olmuş şəxslər hər bir şifrə üzrə uduş fonduna daxil olan hədiyyələrdən birini qazanma şansı əldə edəcək. Əsas hədiyyə olan "Haval H6 Hybrid" markalı avtomobilin uduşu istisna təşkil edir. Bu uduşda bütün unikal şifrələr iştirak edəcək, bu və ya digər şifrənin öncəki tirajlarda qalib gəlib-gəlmədiyindən asılı olmayaraq.

   * Hədiyyələrin rəngi və komplektasiyası KİV-də (reklam vasitələrdə) göstərilmiş nümunədən fərqlənə bilər.

   **Səyahət uduşuna "Saral Travel" şirkəti tərəfindən təqdim olunan 5000 AZN dəyərində olan 1 vauçer daxildir. Səyahət uduşuna daxildir: iki nəfərlik təyyarə biletləri, yataq və səhər yeməyi daxil 5 ulduzlu oteldə yerləşdirimə, iki nəfərlik transfer və sığorta. Kuponun maksimal dəyəri 5000 AZN-dir. Vauçer 31.12.2025 tarixinədək etibarlıdır. Vauçer son istifadə tarixindən sonra istifadə edilə bilməz.

   Vauçer başqa şəxsə verilə bilməz və pula dəyişdirilmir. Vauçerdən istifadə edilməsi üçün "Saral Travel" şürkətinə müraciət olunur, vauçer təqdim dildikdən sonra götürülür və geri qaytarılmır. Bir vauçer yalnız bir dəfəlik istifadəsi üçün

nəzərdə tutulub, sonra ləğv edilmiş sayılır. Vauçer ilə əldə etdiyiniz məhsulun/xidmətin qiyməti 5000 AZN məbləğdən az olduğu təqdirdə, qalan məbləğ qaytarılmır. Məhsulun/xidmətin qiyməti 5000 AZN məbləğindən çox olduğu halda, fərq vauçer sahibi tərəfindən ödənilməlidir. Vauçer təmiz olmayan, cırıq və ya başqa şəkildə zədələnmiş olduğu halda, o, qəbul olunmaya bilər.

***Kuponları qazanan şəxs McDonald's mobil tətbiqindəki şəxsi profilin məlumatları təqdim edərək, McDonald's tərəfindən tətbiqdə rəqəmsal kupon əldə edəcək. Bu kupon vasitəsilə udan şəxs həftədə 1 dəfə seçim üçün təqdim olunacaq 3 menyudan birini ödənişsiz şəkildə Azərbaycanda yerləşən istənilən McDonald's restoranından əldə edə bilər. Bunun üçün qeyd olunmuş rəqəmsal kuponu McDonald's restoranında olaraq aktivləşdirmək lazımdır. Menyuların seçimi: Big Mac orta menyu, McChicken orta menyu, Filet-o-Fish orta menyu. Menyuya daxildir: 1 burger, 1 orta fri kartofu, 1 orta Coca-Cola içkisi.

**** "Go Sport" hədiyyə kartları 50 AZN dəyərində təqdim olunur və yalnız 1 alış veriş zamanı istifadə oluna bilər.

*****Sky Park biletləri bütün ailə üzvləri üçün 1 gün ərzində pulsuz giriş təyin edir. Maksimal insanların sayı – 2 böyük, 4 uşaq.

******Park Cinema kinoteatra biletlər promokod formada təqdim olunur. 1 Promokodu istənilən Park Cinema kinoteatrda 1 ədəd biletə dəyişmək mümkundur. Promokod istənilən seansa keçərlidir (İmax və VİP daxil olmaqla).

9. Lotereya təşkilatçısı tərəfindən uduş fondundan udulmamış hissəsinin (qalib tərəfindən götürülməmiş, müraciət edilməmiş uduşlar da daxil olmaqla) geri götürüləcəkdir.
10. Lotereyaya daxil olan Menyu məhsulları ölkə ərazisindəki "McDonald's" restoranlarının daxilində, "MakAvto"-da və onlayn ("Wolt" çatdırılma xidmətləri üzrə tərəfdaşlar vasitəsilə) əldə oluna bilər.
11. Lotereya iştirakçıları haqqında məlumat: Lotereyada 18 yaşı tamam olmuş, Azərbaycan Respublikasının vətəndaşları, vətəndaşlığı olmayan və/və ya daimi yaşayış yeri olan əcnəbiləri könüllü şəkildə Lotereya iştirakçısı ola bilərlər.
12. Lotereyanın oynanılması və uduşun müəyyən edilməsi qaydaları haqqında məlumat:

    12.1. Uduş fondunun oynanılması – uduşda iştirak etmə hüququ əldə edəcək Lotereya iştirakçısı və Lotereyada Qalibin müəyyən edilməsi mövcud qaydalara uyğun olaraq aşağıda göstərilən şərtlər nəzərə alınmaqla həyata keçirilir:

    12.2. İştirakçı tərəfindən müvafiq qaydada göndərilmiş və uğurla qeydə alınmış hər bir şifrə Lotereyanın uduş fondunun oynanılmasının hər mərhələsində 1 (bir) iştirak hüququ verir. Misal: Uğurla qeydə alınmış şifrə 1-ci mərhələnin 1-ci tirajda oynanıldı, 1-ci mərhələnin sonraki, yəni 2-ci tirajda həmin şifrə iştirak etmir. Lakin həmin şifrə 2-ci mərhələnin tirajında iştirak edir. Eyni şəxsin digər şifrələrin 1-ci mərhələnin tirajlarında eyni qaydada oynanılmasına məhdudiyyət qoyulmur.

12.3. Uduş fondunun oynanılması (tirajların keçirilməsi) elektron təsadüfi seçim sistemi (www.random.org) vasitəsilə həyata keçirilir. Elektron təsadüfi seçim sisteminin linki *www.mcdonalds25.az* veb saytında yerləşdirəcəkdir. Tirajlar üçün müəyyən edilmiş vaxtlarda hər kəs canlı qoşulub, onlayn şəkildə tirajın keçirilməsini izləyə bilər. Hər bir hədiyyənin oynanılması elektron təsadüfi seçim sistemi vasitəsilə seçimin həyata keçirilməsindən əvvəl elan edilir və hər bir hədiyyə üzrə qalibin müəyyənləşdirilməsi üçün sistem işə salınır. Elektron təsadüfi seçim sistemi vasitəsilə hansı şifrə müəyyən edilərsə, həmin şifrəli “McDonald’s” kassa çeki ilə iştirakçı olmuş şəxs qalib olmuş olacaq.
12.4. İstehlakçılar yaranan suallarla əlaqədar Lotereya üçün qaynar xətt vasitəsilə Təşkilatçıya müraciət edərək kömək istəyə biləcəklər. Qaynar xətt (watsap): 0102342525
12.5. Toplam lotereya 2 mərhələ və 3 (üç) tirajda həyata keçiriləcəkdir. Hər tiraj üzrə qalib qəlmiş şifrələr haqqında məlumat *www.mcdonalds25.az* veb saytında yerləşdirəcəkdir.
12.6. Hər tiraj üçün şifrələrin qəbulu aşağıdaki vaxtlarda həyata keçirilir:
- 1-ci mərhələnin 1-ci tiraj: 06.09.2024 saat 00:00-dan - 30.09.2024 saat 23:59-dək qeydiyyatdan keçmiş elektron kodlar iştirak edir.
- 1-ci mərhələnin 2-ci tiraj: 01.10.2024 saat 00:00-dan 31.10.2024 saat 23:59-dək qeydiyyatdan keçmiş elektron kodlar iştirak edir.
- 2-ci mərhələnin 1-ci tirajı: 06.09.2024 saat 00:00-dan - 31.10.2024 saat 23:59-dək qeydiyyatdan keçmiş elektron kodlar iştirak edir.

13. Lotereyada qalib gələn şəxslərə uduşların verilmə qaydası və şərtləri:
13.1. Uduşlar qaliblərə 90 (doxsan) iş günü ərzində Bakı şəhəri, Məmməd Araz 25A, ofis 10 ünvanında təqdim ediləcəkdir.
13.2. İştirakçı uduş fondunun oynanılmasında qalib olduğu halda, iştirakçı şifrəsinin göndərildiyi “Menyu” məhsullarının üzərində təqdim edilən şifrəli kassa çekini təqdim edə bilmirsə, uduş qalibə təslim edilə bilməz. Bu səbəblə, şifrə iştirakçı tərəfindən qeydiyyatdan keçirildikdən sonra həmin şifrənin əks olunduğu kassa çeki Lotereya müddətində və ondan sonrakı 90 (doxsan) iş günü ərzində həmin şəxs tərəfindən qorunub saxlanılmalıdır.
13.3. Saxlanılan “Menyu” məhsullarının üzərində təqdim edilən şifrəli kassa çeki hər hansı bir şəkildə təhrif edilməməli və zərərə məruz qalmamalıdır. Əks halda, Qalibin uduşu təslim edilə bilməz.
13.4. Uduş dəyərinin pul ekvivalenti verilmir.
13.5. Lotereya Təşkilatçısı vergi və digər məcburi ödənişləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq ödənilməsinə görə öhdəliyi uduşun Qalibə təhvil verilən anına qədər öz üzərinə götürür.
13.6. İştirakçı şifrələrinin qeydə alınması Lotereyanın başlayacağı 06.09.2024-cü il günü saat 00:00-dan Lotereyanın bitmə tarixi olan 31.10.2024-cü il saat 24:00-dək mümkün olacaqdır. Bu müddət xaricində göndəriləcək şifrələr keçərsiz hesab ediləcəkdir.

13.7. Qalib olan iştirakçılar uduş fondunun oynanıldığı tarixdən sonra ən gec 90 (doxsan) iş günü ərzində qalib gələn şifrənin əks olunduğu “Menyu” məhsullarının üzərində təqdim edilən şifrəli kassa çekini şəxsiyyət vəsiqəsi ilə birlikdə Təşkilatçıya müraciət edərək uduşu tələb edə biləcəklər. Bu müddət ərzində Təşkilatçıya müraciət üçün qaynar xəttlər açıq olacaqdır.

13.8. Keçirilən Lotereyada mülkiyyət ilə bağlı hər hansı mübahisə olduğu halda, mübahisə ilə bağlı Azərbaycan Respublikası məhkəmələrinin və müvafiq hüquq-mühafizə orqanlarının yekun qərarlarına qədər uduşun verilməsindən imtina etmək hüququnu Təşkilatçı özündə saxlayır.

13.9. Uduşlar Təşkilatçı tərəfindən qalib gələn şifrəli kassa çekini qəbul edildiyi halda 30 (otuz) gün ərzində təqdim ediləcəkdir.

14. Tirajlar və hədiyyələr barədə məlumat: Lotereya ümumilikdə 2 mərhələ və 3 tiraj üzrə keçiriləcəkdir. Tirajlar üzrə uduş bölgüsü və keçirilmə tarixi aşağıdakı kimi olacaq:

1-ci mərhələnin 1-ci tirajın uduş fondu və oynanılması tarixi: 04.10.2024 saat 16:00

- 1 (bir) səyahət paketi;
- 2 (iki) ədəd iPhone 15 128 GB telefonu;
- 2 (iki) ədəd Televizor Hisense 50A6K;
- 10 (on) ədəd – McDonald’s-da ömür boyu pulsuz yemək təyin edən kuponlar;
- 75 (yetmiş beş) ədəd 50 AZN-lik dəyərində olan “Go Sport” hədiyyə kartları;
- 250 (iki yüz əlli) ədəd “Sky Park” əyləncə mərkəzinə 1 ailə üçün pulsuz girişi təyin edən kuponlar;
- 500 (beş yüz) ədəd Park Cinema kinoteatr bileti.

1-ci mərhələnin 2-ci tirajın uduş fondu və oynanılması tarixi: 04.11.2024 saat 16:00

- 1 (bir) səyahət paketi;
- 3 (üç) ədəd iPhone 15 128 GB telefonu;
- 3 (üç) ədəd Televizor Hisense 50A6K;
- 15 (on beş) ədəd – McDonald’s-da ömür boyu pulsuz yemək təyin edən kuponlar;
- 75 (yetmiş beş) ədəd 50 AZN-lik dəyərində olan “Go Sport” hədiyyə kartları;
- 250 (iki yüz əlli) ədəd “Sky Park” əyləncə mərkəzinə 1 ailə üçün pulsuz girişi təyin edən kuponlar
- 500 (beş yüz) ədəd Park Cinema kinoteatr bileti.

2 - ci mərhələnin tirajı uduş fondu və oynanılması tarixi: 06.11.2024 saat 16:00

- 1 (bir) Haval H6 Hybrid